**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

**Q Ə R A R**

**№ 18/09**

**Bakı şəhəri** **31 may 2024-cü il**

**"Birinci instansiya məhkəmələrində kommersiya mübahisələrinə baxılması haqqında" 2-a №-li (yarımillik, illik) rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstərişin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2023-cü il 11 yanvar tarixli 2/09 nömrəli qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 115 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə"nin 9.6-cı və 14.4-cü bəndlərini rəhbər tutaraq, "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1079-VIQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 25 yanvar tarixli 4275 nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 5 fevral tarixli 82s nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**qərara alır:**

1. "Birinci instansiya məhkəmələrində kommersiya mübahisələrinə baxılması haqqında" 2-a №-li (yarımillik, illik) rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstərişin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2023-cü il 11 yanvar tarixli 2/09 nömrəli qərarında aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin qərarla təsdiq edilmiş "Birinci instansiya məhkəmələrində kommersiya mübahisələrinə baxılması haqqında" 2-a №-li (yarımillik, illik) rəsmi statistika hesabatı formasının 11-ci sütunu ləğv edilsin.

1.2. həmin qərarla təsdiq edilmiş "Birinci instansiya məhkəmələrində kommersiya mübahisələrinə baxılması haqqında" 2-a №-li (yarımillik, illik) rəsmi statistika hesabatı formasının doldurulmasına dair göstəriş"in:

1.2.1. 2-ci hissəsinin birinci abzasında "forması" sözü "formasına dair məlumatlar" sözləri ilə əvəz edilsin;

1.2.2. 3-cü hissəsinin birinci abzasında “formasının” sözü “formasına dair məlumatlar” sözləri ilə əvəz edilsin.

2. Qərar qəbul edildiyi gündən üç gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

3. Aparatın Sosial statistika şöbəsinə tapşırılsın ki, bu qərardan irəli gələn məsələləri həll etsin.

4. Qərarın icrasına nəzarət Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinə həvalə olunsun.

**Sədr** **Tahir Budaqov**